**Vüqar Qəhrəman oğlu Tağıyev**
**Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti, doktorant**
**E-mail: vtaqiyev@mail.ru**
**UOT: 334.012: 334.722: 334.021; JEL: L26; L53; P13**

# Neft emalı sənayesində sahibkarlığın rolunun qiymətləndirilməsi və inkişafı üzrə nəzəri-metodoloji yanaşmalar

***Xülasə***

*Tədqiqatın məqsədi - neft emalı sənayesində sahibkarlığın rolunun qiymətləndirilməsi və inkişafı üzrə nəzəri metodoloji yanaşmaların tədqiq edilməsidir. Bunun üçün neft emalı sənayesinin inkişaf potensialı açıqlanmış və bununla bağlı məsələlər baxılmışdır. Neft emalı sənayesində sahibkarlığın rolunun artırılması hazırki şəraitdə vacib şərtlərdəndir. Belə ki, dünya bazarlarında neftin qiymətinin dəyişməsilə bağlı olaraq onun emalı kifayət qədər səmərəli hesab edilir. Burada neft emalı sənayesində sahibkarlığın rolunun gücləndirilməsi tədbirlərinin həyata keçirilməsinin vacibliyi əsaslandırılmışdır. Tədqiqatın metodologiyası - məqalədə baxılan problemlərdən yanaşmaqla təhlil, sintez, müqayisə metodlarından və ümumiləşdirmədən ibarətdir. Eyni zamanda, bir sıra müəlliflərin bu sahədə olan elmi əsərlərindən, baxışlarından və yanaşmalarından da istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti - alınmış praktiki nəticələrdən Azərbaycanın neft emalı sənayesində sahibkarlığın rolunun artırılması tədbirlərinin görülməsində və bununla bağlı fəaliyyət strategiyasının hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın nəticələri - ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində neft emalı sənayesinin rəqabətqabiliyyətli müəssisələrinin yaradılması baxımından sahibkarlığın inkişaf etdirilməsi, özəl sektorun rolunun artırılması üzrə mexanizmlərin hazırlanmasında müəyyən faydalar verə bilər. Tədqiqatın orjinallığı və elmi yeniliyi – ilə əlaqəli qeyd etmək olar ki, məqalədə verilən materiallara əsasən neft emalı sənayesində sahihkarlığın rolu ilə bağlı olduğundan orjinallıq təmin edilmişdir. Başlıca elmi yenilik isə Azərbaycanda qeyri-neft sektoru sahələrinin diversfikasiyalaşdırılması kontekstində neft emalı sənayesində sahibkarlığın rolunun gücləndirilməsi və obyektiv olaraq qiymətləndirilməsinin təmin edilməsidir. Eyni zamanda, sahibkarlığın müasir piroritetləri nəzərə alınmaqla, onların fəaliyyətinin dəstəkləmməsi, müvafiq tədbirlərin görülməsi, sağlam rəqabət və investisya mühitinin yaradılmasının vacibliyi əsaslandırılmışdır. Baxılan problemlər üzrə təkliflər hazırlanmış və tövsiyələr verilmişdir.*

***Açar sözləri:*** *neft emalı, neft emalı sənayesi, sahibkarlıq, sahibkarlığın rolunun qiymətləndirilməsi, sahibkarlığın roluna nəzəri baxışlar, sahibkarlığın rolunun qiymətləndirilməsi üzrə metodoloji yanaşmalar.*

## Problemin qoyluşu

Müasir şəraitdə sahibkarlıq subyektləri iqtisadiyyat və cəmiyyət üçün əvəzsiz rol oynayır. Onlar dövlət və ictimai həyata öz təsirini göstərir, bazar münasibətlərinin möhkəmlənməsini təmin edir, iqtisadi artımın və ölkənin rəqabət qabiliyyətinin artırılmasının ən mühüm amili kimi çıxış edir. Dünyanın neft hasil edən ölkələrində də neft emalının genişləndirilməsində sahibkarlıq subyektlərinin fəaliyyətindən istifadə təcrübəsi diqqət çəkir. Məlumdur ki, istənilən istehsal dörd ənənəvi resursdan - torpaq, kapital, əmək və sahibkarlıq qabiliyyətlərindən istifadəni tələb edir. Bununla belə, innovasiya informasiya iqtisadiyyatının formalaşması şəraitində əsas, həlledici, strateji amil kimi çıxış edir. Buna görə də, müasir sahibkarlıq subyektlərinin innovasiyadan istifadə etməsi onların uğur qazanması üçün vacib şərtdir. İnnovasiyalar informasiyasız mümkün deyil, digər tərəfdən yüksək kommersiya riski yaradır ki, onun da idarə olunması informasiya resurslarından istifadəni nəzərdə tutur. Deməli, müasir sahibkarlıq təkcə ticarət və kommersiya fəaliyyəti deyil, həm də məhsul istehsalıdır və bu prosesdə yüksək keyfiyyətli informasiya ilə dəstəklənən yüksək riskli

yeniliklərə önəm verilməlidir. Sahibkarlıq haqqında yanaşmaların təqribən üç əsr əvvəl verilməsinə baxmayaraq, o, cəmiyyətin iqtisadi həyatında minilliklər boyu mövcud olmuşdur. Bazar idarəetmə sisteminin inkişafı ilə, eləcə də iqtisadi nəzəriyyənin təkamülü prosesində müxtəlif elmi məktəb və istiqamətlərin nümayəndələri sahibkarlığın mahiyyətini və onun iqtisadi prosesdəki əhəmiyyətini müxtəlif cür müəyyənləşdirmişlər. İqtisadi ədəbiyyatda ilk dəfə “sahibkar” termini 1723-cü ildə Parisdə nəşr olunan “Dünya Kommersiya Lüğəti”ndə əks olmuş və onun obyekt istehsal etmək və ya tikmək öhdəliyini üzərinə götürən şəxs mənasını verdiyi göstərilirdi. Bir çox alimlər fransız iqtisadçısı R.Kantilyonu ilk sahibkarlıq anlayışının yaradıcısı hesab edirlər. Məhz o, “sahibkarlıq” terminini iqtisadiyyata daxil etmişdir. R.Kantillon sahibkarı müəyyən məhsul istehsal etmək üçün müəyyən qiymətə istehsal vasitələri alan və gəlir əldə etmək məqsədi ilə satan şəxs hesab etmişdir. Sahibkar çox vaxt satışın hansı qiymətlərlə həyata keçirilə biləcəyini bilmədən xərclər üzrə öhdəlik götürür. R.Kantilyon sahibkarlıq fəaliyyətində riskin olması haqqında ilk danışanlardandır. Onun fikrincə, sahibkarlar bazarlardakı dəyişiklikləri proqnozlaşdırmağa və onlara uyğun hərəkət etməyə çalışırlar. R. Kantilyon sahibkarlıq dedikdə XVIII əsrə xas olan iqtisadiyyat və cəmiyyəti təsvir edir. R.Kantilyona görə sahibkarlıq fəaliyyəti təkcə istehsal fəaliyyətini tələb etmir və heç də həmişə sahibkarın hesabına həyata keçirilmir. Sahibkarlıq fəaliyyəti üçün əsas şey uzaqgörənlik və risk etmək istəyidir. Sahibkarın gəliri riskə görə ödənişdir [1, s.18].

Klassik iqtisad elminin banisi A.Smit (1723-1790) “iqtisadi insan” modelini müdafiə edərək sahibkarı öz kommersiya ideyasını həyata keçirmək və qazanc əldə etmək üçün riskə gedən kapital sahibi kimi səciyyələndirmişdir. Lakin A.Smit iqtisadiyyatı “gözəgörünməz əl” tərəfindən idarə olunan özünütənzimləyən mexanizm kimi təqdim etdiyinə görə də sahibkarlıqda yaradıcılığa və sahibkarın özünün mahiyyətinə o qədər də önəm verməmişdir. Eyni zamanda, A.Smit “Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında araşdırma” (1776) adlı əsas əsərində sahibkara xas xüsusiyyətləri açıqlamışdır. A.Smitə görə sahibkar – müəyyən kapitalı olan, müəyyən kommersiya ideyasını həyata keçirən və qazanc əldə etmək üçün riskə gedəndir. Çünki konkret sahibkarlığa kapital qoyuluşları həmişə risklə bağlıdır. A.Smitə görə, sahibkar idarəetmə riskini üzərinə götürən kapital sahibidir [2, s.10]. XIX əsrin sonlarında isə fransız iqtisadçısı. J.B.Sey (1762-1832) A.Smitin tərəfdarı kimi seçilirdi və o, öz fikirlərini ardıcıl və yorulmadan təbliğ edirdi. A.Smitin kitabını fransız dilinə tərcümə edən J.B.Sey “İngilis sahibkarlarının istedadının” İngiltərədə sənayenin inkişafında uğur amillərindən biri olduğunu qeyd etmişdir. J.B.Seyin fikrincə, “sahibkar o şəxsdir ki, öz riski hesabına və öz xeyri naminə hər hansı bir məhsul istehsalını öz öhdəsinə götürür” [3, s.46]. Sahibkarlıq nəzəriyyəsinin inkişafına mühüm töhfələr verən klassik siyasi iqtisad məktəbinin nümayəndəsi J.B.Sey sahibkarı kapitalistdən ayırdı. O, hesab edirdi ki, sahibkar iqtisadiyyatın inkişafında əsas rol oynayır, yəni iqtisadi resursların səmərəli bölüşdürülməsini və istifadəsini təmin edir. Məhz J.B.Seyin tədqiqatları sahibkarlığın elmi nəzəriyyəsinin formalaşması üçün əsas olub. J.S.Milin “Siyasi iqtisadın əsasları” adlı fundamental əsərində sahibkar təkcə risk üçün məsuliyyət daşıyan deyil, həm də biznesi idarə edən şəxs kimi göstərilir. J.S.Mil sahibkarı və həm də risk götürən, lakin istehsal prosesi ilə birbaşa əlaqəsi olmayan səhmdarı (investoru) aydın şəkildə fərqləndirir [4,s.150].

J.Şumpeterin fikrincə isə, sahibkar - funksiyası yeni birləşmələrin həyata keçirilməsi olan təsərrüfat subyektidir. J.Şumpeter “İqtisadi inkişaf nəzəriyyəsi”ndə sahibkarlıq fəaliyyətinin aşağıdakı funksiyalarını formalaşdırmışdır: 1) yeni, lakin istehlakçıya tanış olmayan məhsulların və ya əvvəlki məhsulların yeni keyfiyyətlə istehsalı; 2) əvvəllər istifadə olunmamış yeni istehsal üsullarının tətbiqi; 3) yeni bazarların inkişafı; 4) yeni xammal mənbələrinin və növlərinin işlənməsi və 5) istehsalın və marketinqin yeni formada təşkilinin həyata keçirilməsi [5, s.10]. Neoklassiklərin əsərlərində (A.Marşall, L.Valras, K.Menqer,

F.Vizer) sahibkarın menecer kimi tərifi verilmişdir. O vaxtdan bəri sahibkar-menecer həm klassik, həm də müasir əksər sahibkarlıq nəzəriyyələrində ümumi elementə çevrilmişdir. Sahibkarlıq funksiyası neoklassiklərin nöqteyi-nəzərindən istehsalın dəyişən bazar şəraitinə uyğunlaşdırılması, pozulmuş tarazlığın bərpası, resurslardan daha səmərəli istifadə və yaranan tələbin ödənilməsidir [6, s.14]. Deyilənlərə əsaslanaraq və sahibkarlığın inkişafındakı mövcud tendensiyaları nəzərə alaraq, biz bu fəaliyyətin tərifini aşağıdakı kimi verə bilərik: “Sahibkarlıq - bazar münasibətlərinin subyektləri tərəfindən risk və rəqabət şəraitində həyata keçirilən, mənfəət əldə etməyə, iqtisadi artıma və cəmiyyətin sosial inkişafına nail olmağa yönəlmiş azad innovativ fəaliyyətdir. Sahibkar isə sürətlə dəyişən bazarda bu fəaliyyəti bacarıqla həyata keçirə bilən subyektdir”. Fikrimizcə, bu tərif sahibkarlıq subyektlərini, obyektlərini, məqsədlərini və rolunu ən dolğun şəkildə xarakterizə edir. Bu qeyd olunan nəzəri yanaşmalar neft emalı sənayesində olan sahibkarlıq subyektləri üçün də xarakterikdir. Neft emalı sənayesində sahibkarlığın təşkili və inkişaf etdirilməsi müvafiq rəqabət mühitinin yaradılmasını tələb edir və burada ortaya çıxa biləcək risklərin idarə edilməsi imkanları da obyektiv olaraq qiymətləndirilməlidir.

**Neft emalı sənayesində sahibkarlığın rolunun qiymətləndirilməsi mexanizmlərinin xüsusiyyətləri və prinsipləri**

İstənilən məhsuldar fəaliyyətin, o cümlədən neft emalı sənayesində sahibkarlığın səmərəli həyata keçirilməsinin ilkin şərtləri onun metodoloji əsaslarının müəyyən edilməsi və nəzərə alınmasıdır. Metodologiya adətən struktur, məntiqi yanaşma, fəaliyyət metodları və vasitələri haqqında doktrina kimi müəyyən edilir. Elmin metodoloji problemləri müxtəlif istiqamətli alimlər tərəfindən geniş müzakirə olunur və uğurla həll edilir. Bununla belə, metodologiya anlayışı elmi fəaliyyətlə məhdudlaşmamalıdır. Metodologiya əsas münasibətlər toplusu kimi məhsuldar insan fəaliyyətinin bütün növlərinə aiddir. Neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin metodoloji əsaslarının müəyyənləşdirilməsi onun əsas məqsədlərini, xüsusiyyətlərini, prinsiplərini, resurslarını, şərtlərini, amillərini, normalarını, funksiyalarını müəyyən etmək deməkdir. Bunlarla bərabər, sahibkarlıq subyektlərinin fəaliyyət məqsədlərinə bir sıra problemlərin həlli ilə nail olunur: müəssisənin optimal təşkilati-hüquqi formasının seçilməsi; seçilmiş istehsal sahəsinin praktiki inkişafı; bazar vəziyyətinin, o cümlədən tələbin öyrənilməsi, habelə mövcud və potensial rəqiblərin imkanlarının qiymətləndirilməsi; müəssisənin likvidliyinin saxlanılması, yəni, öhdəliklər üzrə ödənişlərə imkan verən pul vəsaitlərinin və digər likvid aktivlərin daimi mövcudluğu; sahibkarın cəmiyyət qarşısında məsuliyyətini nəzərdə tutan ekoloji, etik və sosial tələblərə əməl olunması.

Ümumilikdə sahibkarlıq fəaliyyətinin məlum xüsusiyyətlərindən yanaşdıqda, onların əksəriyyətinin neft emalı sənayesi üçün də xarakterik olduğunu qeyd edə bilərik. Belə ki, sahibkarlıq fəaliyyətinin əsas (maddi) xüsusiyyətlərinə, birincisi, hər hansı əmək fəaliyyətinə xas olan xüsusiyyətlər (nəzəri və praktiki, fərdi və kollektiv), ikincisi, müvafiq sahibkarlıq subyektlərinin xüsusiyyətləri daxildir. Bir sıra ədəbiyyatlarda qeyd olunur ki, hər hansı sahibkarlıq subyektinə xas olan əlamətlər bunlardır: unikallıq və gözlənilməzlik, azad iradənin mövcudluğu; dəyişən ətraf mühit şəraitinə uyğunlaşmaq və çağırışlara cavab vermək bacarığı; məqsəd qoymaq və məqsədə çatmaq üçün müxtəlif variantlar hazırlamaq bacarığı; xarici və daxili dağıdıcı meyillərə müqavimət göstərmək bacarığı; özünü təşkil etmək və özünü inkişaf etdirmək bacarığı. Ayrıca olaraq qeyd etmək istərdik ki, neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin özünün xarakterik xüsusiyyətləri bunlardır: qərarların qəbulunda müstəqillik; yeniliyə həssaslıq, nəticə əldə etməyə diqqət; yaradıcı olmaq, ideyaları reallaşdırmaq bacarığı; risk etməyə meyillilik, bunu öz üzərinə götürməyə hazır olmaq; sürətli inkişafa və innovasiyaya üstünlük verilməsi. Sahibkar müvafiq funksiyaları müstəqil yerinə yetirməyə və

ya bu funksiyaları digər iştirakçılara həvalə etməyə hazır olmalıdır. Bunlarla belə, neft emalı sənayesini innovasiyalarsız təsəvvür etmək çətindir, amma bunun üçün sahibkarlığın inkişaf etdirilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Qeyd edək ki, nəzəri-metodoloji baxımından sahibkarlıq subyektlərinin iqtisadi inkişafda rolu onun funksiyalarında özünü göstərir. İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində sahibkarlıq təsərrüfat təşkilatlarının, fərdi sahibkarların, habelə biznes strukturlarının mürəkkəb birliklərinin məcmusu kimi bir sıra funksiyaları yerinə yetirir.

**Cədvəl 1.**

**Sahibkarlıq subyektlərinin funksiyaları**

| **Funksiyaların növü** | **Funksiyaların mahiyyəti** |
|---|---|
| **Makroiqtisadi funksiyalar** | |
| Cəmiyyətin sərvətinin artırılması | Cəmiyyətin ümumi sərvətinin daimi artımı kimi əmtəə istehsalı; İqtisadiyyatda ən mühüm amilin inkişafı kimi insan kapitalının artımı. |
| Milli proqramlarda iştirak | Cəmiyyətin sosial-iqtisadi inkişafı proqramlarının həyata keçirilməsi üçün vəsaitlərin ayrılması; Əhalinin məşğulluğunun təmin edilməsi və s. |
| Malların və xidmətlərin ekoloji təhlükəsizliyinin təmin edilməsi | Mal və xidmətləri ilə ətraf mühitə zərərə görə məsuliyyətin artırılması. |
| Yeni iş yerlərinin yaradılması | Yeni istehsal müəssisələrinin açılması və ya istehsalın genişləndirilməsi. |
| İstehsal imkanlarının genişləndirilməsi | Texnikanın, texnologiyanın, təşkilatın və idarəetmənin təkmilləşdirilməsi. |
| Mikroiqtisadi funksiyalar | |
| Mənfəət əldə edilməsi | Şirkətin zərərsiz fəaliyyətinin təmin edilməsi, istehsalın genişləndirilməsi. |
| İstehsal amillərinin birləşməsi | Sahibkarlığın məqsədinə çatmaq üçün bütün istehsal amillərinin (maddi, şəxsi, intellektual) müxtəlif kombinasiyalarının istifadəsi. |
| İnnovasiya fəaliyyətinin həyata keçirilməsi | İstehsal, təşkilat və idarəetmədə yeni həllərin daimi axtarışı. Elmi-texniki tərəqqiyə istiqamətlənmə. |
| Xərcin azaldılması | Sahibkarlığın daxili xərclərinin müəyyən edilməsi, xarici amillərin təqdim etdiyi imkanlardan istifadə edilməsi. |
| Bazarda rəqabət mübarizəsinin aparılması | Bazarda rəqabət strategiyasının müəyyən edilməsi |
| İtkilərin azaldılması | Tullantısız istehsalın inkişafı |
| Faydanın təmin edilməsi | Mənfəət şəklində iqtisadi səmərə ilə yanaşı, bazar payının əldə edilməsi, gəlirli sifarişlərin alınması, şirkətin nüfuzunun inkişafı və s. |
| Risk və məsuliyyət daşıma | Riskdən sığortalanmaq və ya mümkünsə onu azalmaq. |

Neft email sənayesində bazar münasibətləri şəraitində sahibkarlıq subyektlərinin yerinə yetirdiyi funksiyaları ümumi iqtisadi, resurs, innovativ, sosial, təşkilati funksiyalar kimi təsnif etmək olar. Ümumi iqtisadi funksiya obyektiv olaraq hüquqi şəxs kimi fəaliyyət göstərən sahibkarlıq institutlarının və ya öz adından və öz əmlak məsuliyyəti ilə fəaliyyət göstərən fərdi sahibkarların rolu ilə xarakterizə olunur. Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatı qanunları sisteminin (təklif, tələb, rəqabət, qiymət) təsiri altında həyata keçirilən malların, xidmətlərin, işlərin istehsalına yönəldilir ki, bu da onun təzahürünün obyektiv əsasını təşkil edir. Sahibkarlığın formalaşması iqtisadi artımın, yəni ÜDM-in artmasının əsas şərtlərindən biri hesab olunur. İqtisadi münasibətlər sistemində həmin amil hələ də ümumi iqtisadi funksiyanın təzahür forması kimi özünü göstərir. Resurs funksiyası sahibkarlıq subyektlərinin ən mühüm funksiyalarından biridir. Sahibkarlıq fəaliyyətinin formalaşması bərpa olunan və məhdud resurslardan səmərəli istifadə ilə bağlıdır. Resurslar həm maddi, həm də qeyri-maddi istehsal amilləri kimi başa düşülür. İlk növbədə, bunlar torpaq, əmək ehtiyatları, istehsal vasitələri, sahibkarlıq qabiliyyətləri kimi ehtiyatlardır. Sahibkarlıq subyektləri şəxsi biznesini yaratdığı sahədə yeniliklər edə bilsə, ən yüksək uğura nail olmaq imkanına malikdir. Bütün

bunlar ixtisaslı əməyin istifadəsi və bütün növ resursların səmərəli istehlakı ilə birləşdirilir. Ancaq ən yüksək gəlirin arxasınca getmək çox vaxt resursların səmərəsiz istifadəsinə gətirib çıxarır. Belə sahibkarlıq subyektləri bəzi hallarda öz işləri ilə ətraf mühitə, cəmiyyətə ziyan vururlar. Sahibkarlıq subyektlərinin resurs funksiyasından düzgün istifadə emədiyi halda bu sahədə dövlət tənzimlənməsinin zəruriliyi özünü göstərir.

Neft emalı sənayesində sahibkarlığın innovativ funksiyası bilavasitə sahibkarlıq fəaliyyəti prosesində ən son ideyaların tətbiqi, eləcə də qarşıya qoyulan məqsədlərə nail olmaq üçün yeni yol və vasitələrin axtarışı ilə bağlıdır. Sahibkarlıq subyektlərinin innovativ fəaliyyəti onların bir-birini tamamlayan bütün digər funksiyaları ilə bilavasitə bağlıdır. Bu funksiya sahibkarlıq subyektlərinin qərarların qəbulu baxımından iqtisadi azadlıq səviyyəsinin nəticəsidir. Sahibkarlıq ölkə iqtisadiyyatına təsir göstərməklə yanaşı, bilavasitə cəmiyyətin dəyişməsinə yönəlmişdir ki, bu da sosial funksiyanın təzahürüdür. Birincisi, əhalinin ehtiyacları ödənilir. İkincisi, hər bir bacarıqlı insana kiçik və ya orta biznes sahibi olmaq imkanı verilir ki, bu da ona fərdi istedadlarını nümayiş etdirməyə imkan verir, nəticədə müxtəlif çətinlikləri dəf etməyə həmişə hazır olan təşəbbüskar insanlar təbəqəsi formalaşır. . Üçüncüsü, ölçüsündən asılı olmayaraq hər bir müəssisə birdən çox işlə təmin edir ki, bu da işsizliklə mübarizədə effektiv vasitədir [7, s.124]. Məlumdur ki, neft emalı sənayesinin həm də sosial-iqtisadi əhəmiyyəti və ölkədə baş verən sosial-iqtisadi inkişaf proseslərinə təsiri böyükdür. Buna görə də sahibkarlığın sosial funksiyası hər hansı əmək qabiliyyətli şəxsin biznesin sahibi olmaq, öz imkan və istedadlarını düzgün nümayiş etdirmək bacarığında ifadə olunur. Bu funksiyası çox vaxt müstəqil iqtisadi fəaliyyətə meyilli və öz biznesini qura bilən, ətraf mühitin müqavimətini dəf edərək qarşıya qoyulan məqsədə çata bilən sahibkarlıq subyektlərinin formalaşmasında özünü göstərir. Bununla belə, eyni zamanda muzdlu işçilərin artımı olur ki, bu da sosial və iqtisadi cəhətdən sahibkarlıq subyektlərinin dayanıqlı fəaliyyətindən asılıdır. Sahibkarlıq subyektləri nə qədər uğurlu fəaliyyət göstərməyə başlasa, dövlət büdcədənkənar sosial fondlarına və müxtəlif səviyyəli büdcələrə daxil olan vəsait bir o qədər çox olacaq. Sahibkarlığın formalaşması işçilərin sayının artmasını, işçilərin həyat səviyyəsinin və sosial vəziyyətinin yüksəldilməsini, işsizliyin səviyyəsinin azalmasını təmin edir. Digər tərəfdən, neft emalı sənayesində sahibkarlığın təşkilati funksiyası sahibkarlar tərəfindən öz biznesinin təşkili, sahibkarlığın idarə edilməsinin inkişaf etdirilməsi, şirkətin strategiyasının dəyişdirilməsi ilə bağlı müstəqil qərarların qəbul edilməsində ifadə olunur. Təşkilati funksiya həm kiçik və orta biznesin, həm də kollektiv sahibkarlığın inkişafı prosesində özünü aydın şəkildə biruzə verir. Beləliklə, sahibkarlığın məzmunu ən dolğun şəkildə sivil sahibkarlığa xas olan, lakin daha çox sahibkarlıq subyektlərindən və dövlət dəstəyindən asılı olan bütün bu funksiyaların məcmusunda ifadə olunur [8, s.521]. Sahibkarlıq subyektlərinin yuxarıda qeyd etdiyimiz funksiyalarına həm ölkədəki, həm də dünya iqtisadiyyatındakı sosial-iqtisadi vəziyyətdən asılı olaraq başqa funksiyalar da əlavə oluna bilər. Sahibkarlıq subyektlərinin fəaliyyətinin inkişafı üçün bazar münasibətlərinin müstəqil alt sistemi kimi onun bütün xüsusiyyətlərini, dialektik xarakterini nəzərə almaq lazımdır. Sahibkarlıq subyektlərinin bazar münasibətlərinin müstəqil alt sistemi kimi dialektik inkişafı onun inkişafının və həyatının mənbəyi olmaqla yanaşı, bu fəaliyyət növünün dövlət tənzimlənməsinin əsasını təşkil edir. Sahibkarlıq subyektlərinin fəaliyyəti bütün istiqamətlərdə inkişaf etməlidir. Sahibkarlıq subyektlərinin fəaliyyətinə bəzi elementlər təsir göstərir və bu elementlərin sahibkarlıq subyektləri ilə qarşılıqlı əlaqə mexanizmini aşağıdakı şəkil vasitəsilə əks etdirə bilərik (şəkil 1).

**Şəkil 1.**
**Sahibkarlıq fəaliyyətinin ona təsir göstərən komponentlərlə qarşılıqlı əlaqə mexanizmi**




Nöqtəli xətt sahibkarlıq fəaliyyətinə təsir göstərən komponentlərin əlaqəsini əks etdirir. Sahibkarlıq texnologiyaya təsir etdiyi kimi, texnologiya sahibkarlığa təsir göstərir. Sahibkarlıq subyektinə məhsulların, işlərin, xidmətlərin istehsalı və istehlakçılara satışı üçün müəyyən üsul və vasitələrə ehtiyac var. Bir sahibkarın istehsal etdiyi məhsul digər sahibkar üçün istehsal vasitəsi ola bilər. Texnologiyalara ehtiyac olduqda, lakin onlar hələ inkişaf etdirilmədikdə və ya onlar bazarda mövcud olmadıqda, onlar lazımi texnologiyaları müstəqil şəkildə inkişaf etdirməlidir. Sahibkarlıq bir çox səbəblərə görə cəmiyyətdən təcrid olunmuş vəziyyətdə mövcud ola bilməz. Sahibkar ərazisində fəaliyyət göstərdiyi cəmiyyətin sosial, mədəni və əxlaqi normalarından asılıdır. İşçilərin işə götürülməsi, istehlakçıların müəyyənləşdirilməsi, kontragentlərin axtarışı zamanı sosial mühitin müəyyən xüsusiyyətlərini nəzərə almaq lazımdır. Sahibkarlıq fəaliyyəti ilə bağlı bu yanaşmalar ölkəmizin neft emalı sənayesində özəl sahibkarlığın inkişaf etdirilməsinin vacibliyini şərtləndirir, təəssüf ki, bu sahədə özəl sektor subyektlərinin fəallığı təmin olunmayıb və əvvəldə qeyd etdiyimiz kimi müvafiq rəqabət mühiti yaradılmayıb.

**Neft emal sənayesində sahibkarlığın inkişaf perspektivləri və istiqamətləri**

İqtisadiyyatda sabitləşdirici və bazar formalaşdıran amil kimi sahibkarlıq subyektlərinin fəaliyyətinin inkişafının dinamikliyini və səmərəliliyini müəyyən edən amillərin tədqiqi xüsusi maraq doğurur. İstənilən ölkədə sahibkarlıq subyektləri müəyyən daxili və xarici amillərin mövcudluğu şəraitində öz fəaliyyətlərini inkişaf etdirə bilər. Sahibkarlıq subyektlərinin fəaliyyətinin müxtəlifliyini və səmərəliliyini yaradan əlverişli mühitdir. Bu baxımdan, xarici mühit biznesin yaranması və inkişafı üçün şərt, müəssisənin daxili mühitdəki fəaliyyəti isə öz kommersiya maraqlarına nail olmaq üçün xarici şəraitdən və amillərdən səmərəli istifadə etməkdir. Sahibkarlar təbii ehtiyatlardan biznes məqsədləri üçün istifadə edərək təbiətə və ətraf mühitə əhəmiyyətli təsir göstərirlər. Ətraf mühit üçün əhəmiyyətli nəticələr təkcə təbii ehtiyatların istehsal məqsədləri üçün çıxarılması deyil, həm də istehsal zamanı ətraf mühitin çirklənməsi, müəssisə məhsullarının istehlakı və utilizasiyası nəticəsində tullantıların meydana gəlməsidir. Təbiətə mənfi təsir problemi hazırda olduqca

aktualdır. Ona görə də sahibkarlıq subyektlərinin digər subyektlərlə münasibətləri tənzimlənməlidir. Sahibkarlıq subyektləri ilə digər subyektlər arasında münasibətləri tənzimləmək üçün iqtisadi maraqların əlaqələndirilməsi prosesi zəruridir İqtisadiyyatın uğurlu inkişafı yalnız sahibkarlıq subyektlərinin iqtisadi maraqlarının ən tam şəkildə həyata keçirilməsi ilə mümkündür. İqtisadi maraqlar sisteminə şəxsi, qrup, kollektiv, korporativ, regional, dövlət və digər maraqlar daxildir. Dövlətin əsas iqtisadi maraqları milli iqtisadiyyatın səmərəli inkişafı, dayanıqlı iqtisadi artıma nail olunması, makroiqtisadi tarazlığın təmin edilməsi, sosial-iqtisadi problemlərin uğurlu həlli, cəmiyyətin bütün üzvlərinin həyat səviyyəsinin yüksəldilməsidir. Aydındır ki, iqtisadi maraqların hər bir növünün həyata keçirilməsi idarəetmənin bütün halqalarında genişlənmiş təkrar istehsalın zəruri şərti və nəticəsi, hər bir sahibkarlıq subyektinin həyatının mühüm şərtidir. Müasir cəmiyyətdə iqtisadi maraqların mahiyyətini açarkən bu maraqların insan kapitalının formalaşmasına, toplanmasına və keyfiyyətinin yüksəldilməsinə yönəldiyini göstərmək lazımdır. İnsan kapitalının əsas komponentləri sağlamlıq kapitalı, əmək kapitalı, intellektual, mədəni-mənəvi, təşkilati, sahibkarlıq və sosial kapitaldır. İqtisadi maraqların məzmunu insanların ehtiyacları, məhsuldar qüvvələrin və iqtisadi münasibətlərin inkişaf səviyyəsi və strukturu ilə müəyyən edilir [10, s.141].

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün müəyyən idarəetmə üsullarına, formalarına və vasitələrinə malik olmaq və tətbiq etmək lazımdır. Sahibkar müxtəlif obyektləri idarə etməlidir və bunlar neft emalı sənayesində də mövcuddur: məhsulların istehsalını; məhsulların satışını; logistika proseslərini; müəssisə resurslarını (kadrlar, istehsal vasitələri və s.) və müəssisə risklərini və s. Bunlarla bərabər, sahibkarlıq subyektlərinin fəaliyyətinin uğuru əsasən seçilmiş idarəetmə mexanizmlərindən və onların praktikada səmərəli şəkildə həyata keçirilməsindən asılıdır. Sahibkar müxtəlif təsərrüfat subyektlərinin (dövlət, ev təsərrüfatları, digər sahibkarlar və s.) qarşılıqlı fəaliyyətinin iştirakçısıdır. Cədvəl 2 vasitəsilə sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir göstərən komponentlərin tərkib hissələrini nəzərdən keçirə bilərik.

**Cədvəl 2.**

**Sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir göstərən komponentlərin tərkib hissələri**

| Kompenentlərin adı | Komponentlərin tərkibi |
|---|---|
| **Texnologiyalar** | • prosedurlar və alqoritmlər;<br>• patentlər;<br>• lisenziyalar;<br>• texnologiya şirkətləri;<br>• texniki vasitələr;<br>• proqram təminatı və s. |
| **Cəmiyyət** | • sosial institutlar;<br>• sosial qruplar;<br>• əhalinin strukturu və s. |
| **Təbiət (ekologiya)** | • təbii ehtiyatlar;<br>• ətraf mühitin mühafizəsi tədbirləri və s. |
| **İdarəetmə** | • strategiya, missiya;<br>• biznes proseslərinin modelləri;<br>• biznes risklərinin idarə edilməsi və s. |
| **İqtisadiyyat** | • bölüşdürmə prosesləri;<br>• məhsulların mübadiləsi və istehlakı;<br>• iqtisadi artım templəri və s. |
| **Siyasət** | • qanunvericilik (beynəlxalq və dövlət səviyyəsində);<br>• hakimiyyət orqanlarının bizneslə qarşılıqlı əlaqəsi və s. |

Sahibkarlar qarşılıqlı əlaqənin şəbəkə formalarına meyllidirlə, bunu bir çox cəhətdən biznes mühitinin mürəkkəbləşməsi, məhsulların mürəkkəbliyinin artması ilə izah etmək olar.

Xüsusilə, biznes strukturları arasında şəbəkə qarşılıqlı əlaqəsinə aşağıdakı nümunələri göstərmək olar: elmi-texniki parklar, texnopolislər, biznes inkubatorlar və klasterlər. Dünyanın əksər ölkələrində və həmçinin Azərbaycanda neft emalı sənayesinin təşkilində bu kimi qurumlardan istifadə olunur. Məsələn, Sumqayıtda kimya sənayesi parkı fəaliyyət göstərir və bu parkın rezidentləri sırasında neft emalı sənayesi müəssisələri də vardır [11].

**Nəticə**

Araşdırmanın nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, sahibkarlıq dövlət idarəçiliyinin ən prioritet obyektlərindən biridir. Bu, iki əsas səbəblə bağlıdır: sahibkarlıq subyektləri olmasa bazar iqtisadiyyatı mövcud ola bilməz və onların yerinə yetirdiyi funksiyalar ölkənin vəziyyətinə və inkişafına faydalı təsir göstərir. Tədqiqatlar göstərir ki, sahibkarlıq subyektləri yerinə yetirdiyi funksiyalarla ölkənin müxtəlif sahələrinin inkişafında böyük rol oynayır. Xüsusən də sahibkarlığın köməyi ilə yeni iş yerləri açılır, müasir texnologiyalar tətbiq edilir ki, bu da ölkənin iqtisadi gücünü artırır. Bütövlükdə, sahibkarlıq subyektlərinin iqtisadi inkişafda  rolu, ilk növbədə, ölkənin ÜDM-dəki payı ilə qiymətləndirilir. Bütün yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, müasir cəmiyyətdə sahibkarlıq müasir şəraitdə iqtisadi inkişafın əsas amilidir. Yaxın perspektivdə perspektivdə Azərbaycanda neft emalı sənayesində sahibkarlığın inkişaf etdirilməsi məqsədilə onun rolunun obyektiv reallıqlar baxımından qiymətləndirilməsi və bununla bağlı yanaşmaların müəyyənləşdirilməsi vacibdir. Buna görə də hesab edirik ki, bir qrup məsələlərə daha çox diqqət yetirilməlidir:

- İlk növbədə Azərbaycanda neft xammalının konseptual olaraq hansı həcminin və müəyyən hissəsinin emal sənayesinə yönəldilməsi məsələsi həll edilməli, bununla bağlı ölkənin emerji balansında hər il neft xammalı resurslarının emalı nəzərə alınmalıdır;
- Müasir dövrdə neft emalı sənayesinin müəssisələri kimi fəaliyyət göstərən kimya və neft-kimya müəssisələrinin emal imkanlarının artırılması istiqamətində tədbirlərdə özəl sektor subyektlərinin inkişafına daha geniş yer verilməli və bununla bağlı dövlət tərəfindən  zəruri tədbirlər görülməli, dövlət dəstəyi mexanizmləri işlənməli və tətbiq olunmalıdır;
- Neft emalı sənayesində sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə piroritet fəaliyyət istiqamətləri müəyyənləşdirilməli, neft xammalı təminatı həyata keçirilməli, müasir texnologiyalar əsaslı, rəqabət qabiliyyətli özəl neft emalı müəssisələrinin şəbəkəsinin yaradılması istiqamətində ciddi addımlar atılmalıdır.

**Ədəbiyyat**

1. Пономарев, О.Б., Светуньков С.Г. Экономика и предпринимательство: Учебник для академического бакалавриата. Национальный исследовательский университет «Высшая школа экономики». – Санкт-Петербург: Издательство «Левша. Санкт-Петербург», 2015.
2. Abbasov, A.B. və b. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464  c.
3. Hüseynova, İ.M. Müəssisənin iqtisadiyyatı. Bakı, 2013, 304 s.
4. Сименко, И.В., Гладкий Н.А. Эволюция научных представлений о содержании и сущности категорий теории предпринимательства // Вестник Донецкого национального университета. Серия B. Экономика и право. – 2020. – № 1. – С. 148-155.
5. Musayev, A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2014. -184 s.
6. Резник, С.Д., Глухова, И.В., Черницов, А.Е. Основы предпринимательской деятельности. Пенза: ПГУАС, 2014, 304 с.

7. Якимчак, А.А. Предпринимательство как объект государственного управления // Сборник научных работ серии “Государственное управление”. – 2019. – № 16. – С. 113-127.
8. Кабелькова, А.С. Сущность предпринимательства: теоретический аспект // Молодой ученый. — 2016. — № 3 (107). — С. 520-523.
9. Стрельник М.М. Предпринимательская деятельность: аспекты, тенденции и перспективы развития предпринимательства // Вестник Алтайской академии экономики и права. – 2020. – № 7-1. – С. 181-192
10. Фролов, Д.Г. Формирование экономических интересов хозяйствующих субъектов / Д. Г. Фролов // Вестник ОрелГИЭТ. – 2012. – № 3(21). – С. 140-142.
11. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, – 376 s.

***Вугар Гахраман оглы Тагиев***
***докторант, Азербайджанского Государственного Университета Нефти и Промышленности.***
***E-mail: vtaqiyev@mail.ru***

***Резюме***

***Теоретико-методологические подходы к оценке и развитию роли предпринимательства в нефтеперерабатывающей промышленности***

*Целью исследования является определение теоретико-методологических подходов к оценке и развитию роли предпринимательства в нефтеперерабатывающей промышленности Азербайджана в современных условиях. С этой целью раскрыта сущность проблем организации и развития предпринимательства в нефтеперерабатывающей промышленности. Рассмотрены важнейшие факторы и приоритетные направления деятельности субъектов частного сектора в нефтеперерабатывающей промышленности. Обоснована необходимость повышения значимости субъектов частного сектора и оценка их роли в развитии и расширении нефтеперерабатывающей промышленности в Азербайджане. Методология исследования, в основном, состоит из общепринятых экономических методов, в том числе, метода сравнительного анализа, синтеза, обобщения по вопросам развития предпринимательства в нефтеперерабатывающей промышленности и их объективной оценки. Далее использованы научно-практические взгляды различных исследователей в данном направлении. Практическая значимость исследования рассматривается путем активного применения научно-практических результатов в разработке и реализации комплексных мероприятий по развитию предпринимательства в нефтеперерабатывающей промышленности и объективной оценке их роли в этих направлениях. Результаты исследования предполагают активное использование полученных научных доводов в обеспечении динамичности развития нефтеперерабатывающей промышленности и её роли в расширении ненефтяных секторов экономики страны. Оригинальность исследования и научная новизна заключается в том, что полученные научные доводы и материалы опираются на современные проблемы организации предпринимательства в нефтеперерабатывающей промышленности Азербайджана и рассматриваются как новое направление исследовательских работ. В качестве основной научной новизны разработаны и сформированы современные теоретико-методологические подходы по объективной оценке предпринимательства в нефтеперерабатывающей промышленности Азербайджана. Подготовлен ряд рекомендаций и даны предложения по рассматриваемым проблемам в ближайшей и долгосрочной перспективе.*

***Ключевые слова:*** *нефтеперерабатывающая промышленность, предпринимательство, оценка роли предпринимательства, теоретические подходы, оценка роли предпринимательства, методологичечкие подходы.*

***Vugar Gahraman Taghiyev***
***doctoral student of Azerbaijan State University of Oil and Industry***
***E-mail: vtaqiyev@mail.ru***

***Summary***

***Theoretical and methodological approaches to the assessment and development of the role of entrepreneurship in the oil refining industry.***

*The purpose of the research is to determine the theoretical and methodological approaches to the assessment and development of the role of entrepreneurship in the oil refining industry of Azerbaijan in modern conditions. To this end, the essence of the problems of organizing and developing entrepreneurship in the oil refining industry is revealed. The most important factors and priority areas of activity of private sector entities in the oil refining industry are considered. The need to increase the importance of private sector entities and assess their role in the development and expansion of the oil refining industry in Azerbaijan is justified. The research methodology mainly consists of generally accepted economic methods, including the method of comparative analysis, synthesis, generalization on the development of entrepreneurship in the oil refining industry and their objective assessment. Further, the scientific and practical views of various researchers in this direction are used. The practical significance of a research is considered through the active application of scientific and practical results in the development and implementation of complex measures for the development of entrepreneurship in the oil refining industry and an objective assessment of their role in these areas. The results of the research suggest the active use of the obtained scientific arguments in ensuring the dynamic development of the oil refining industry and its role in expanding the non-oil sectors of the country's economy. The originality of the research and scientific novelty is in the fact that the received scientific arguments and materials are based on the modern problems of organizing entrepreneurship in the oil refining industry of Azerbaijan and are considered as a new direction of research. As the main scientific novelty, modern theoretical and methodological approaches to objective assessment of entrepreneurship in the oil refining industry of Azerbaijan are developed and formed. A number of recommendations and proposals have been made on the issues under consideration in the short and long term.*

***Key words:*** *oil refining industry, entrepreneurship, assessment of the role of entrepreneurship, theoretical approaches, assessment of the role of entrepreneurship, methodological approaches.*

***Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov***
***Daxil olub: 20.10.2022.***
***Çapa qəbul olunub: 26.10.2022.***